*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 1* *ISSN 2663-4368*
*Səhifə: 150-158* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4368.2023.1.150*

***Publisistika***

# Satirik "Zənbur" jurnalında ədəbiyyat məsələləri

**Vüqar Əhməd**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: vuqar.ehmed.63@mail.ru

**Annotasiya.** İlk nömrəsi 1909-cu il martın 13-də Bakıda nəşr olunan "Zənbur"un yaranması "Molla Nəsrəddin"in adı ilə sıx surətdə bağlıdır. Böyük demokrat yazıçımız Cəlil Məmmədquluzadənin buraxdığı məşhur "Molla Nəsrəddin" jurnalı geniş xalq kütlələri içərisində böyük şöhrət tapdığı üçün o dövrün bir çox mətbuat xadimləri bu jurnalın yolunu tutmağa çalışır, onun kimi mətbuat orqanı yaratmaq istəyirdilər.
"Zənbur" jurnalının ətrafına dövrün müxtəlif əqidəli, müxtəlif dünyagörüşlü ziyalıları toplanmışdı. 70 nömrəsi nəşr edilən "Zənbur" jurnalının redaktoru bir neçə dəfə dəyişmişdir. Jurnalın 1909-cu il 1-21-ci nömrələrinin redaktoru R.B.Səlimxanov, 1909-cu il 22-42-ci nömrələrinin redaktoru Ə.Əzimzadə, 1910-cu il 1-27 nömrələrinin redaktoru isə Murtuz bəy Pələvəndov olmuşdur.
Redaktorlardan rəssam Ə.Əzimzadənin xüsusi ilə qeyd etməliyik. Ə.Əzimzadə "Zənbur" jurnalının 1909-cu il 22-ci nömrəsindən həmin ilin son 42-ci nömrəsinə kimi redaktorluq etmiş, həmçinin onun fəal müəlliflərindən biri olmuşdur. Ə.Əzimzadənin "Zənbur" jurnalında "Firon xüdə", "Avara rəssam", "Xoruz", "Məəttəl qalan" və başqa imzalarla çap edilmiş yazılarında kəndli həyatı, Azərbaycan qadınlarının hüquqsuzluğu, din və mövhumata qarşı mübarizə motivləri, habelə beynəlxalq imperializmin ifşası geniş yer tuturdu.
"Zənbur" jurnalı öz səhifələrində nəşr etdirdiyi ən yaxşı bədii əsərlərlə, mütərəqqi ideyalarla ədəbiyyatımızda ictimai satiranın inkişafında əhəmiyyətli rol oynamışdır.
**Açar sözlər:** "Zənbur", ədəbiyyat, jurnal, şair, dövr

**Məqalə tarixçəsi:** göndərilib – 06.04.2023; qəbul edilib – 27.04.2023

# Literature issues in the satirical magazine "Zanbur"

**Vugar Ahmad**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: vuqar.ehmed.63@mail.ru

**Abstract.** The first issue of "Zanbur" magazine was published on March 13,1909 in Baku and its creation is closely related to the magazine "Molla Nasraddin". Famous magazine "Molla Nasraddin" that was published by great democratic writer Jalil Mammadguluzadeh has gained great

popularity among the general public and that is why many members of the press tried to follow the path of this magazine and wanted to create a press agency like this.
Intellectuals with different beliefs and worldviews gathered around the magazine “Zanbur”. 70 issues of the magazine were published and the editor of the magazine changed several times. The editor of the 1-21 issues of the magazine in 1909 was R.B.Salimkhanov, the editor of the 22-42 issues in 1909 was A.Azimzade, 1-27 issues in 1910 was Murtuz bey Palavandov.
We should mention the name of artist A.Azimzade among the editors especially. A.Azimzade was editor of 22-42 issues of the magazine “Zanbur” and also was one of the active authors of this magazine. The peasant life, disenfranchisement of Azerbaijani women, motives for fighting against religion and superstition and exposure of international imperialism was exposed in the writings by A.Azimzade that were published with pseudonyms such as “Phiron khude”, “Avara ressam”, “Khoruz”, “Meettel galan” and others in the magazine “Zanbur”.
The magazine “Zanbur” played an important role in the development of social satire in our literature, publishing the best art works and progressive ideas on its pages.
**Keywords:** “Zanbur”, literature, poet, period

**Article history:** received − 06.04.2023; accepted − 27.04.2023

## Giriş / *Introduction*

İlk sayı 1909-cu il martın 13-də Bakıda nəşr olunan “Zənbur” satirik jurnalının yaranması “Molla Nəsrəddin”in adı ilə sıx surətdə bağlıdır. Böyük demokrat yazıçımız Cəlil Məmmədquluzadənin redaktorluğu ilə nəşr olunan məşhur “Molla Nəsrəddin” dərgisi geniş xalq kütlələri içərisində şöhrət tapdığı üçün o dövrün bir çox mətbuat xadimləri bu jurnalın yolunu tutmağa çalışır, bu üslubda satirik mətbuat orqanı yaratmaq istəyirdilər.

## Əsas hissə / *Main Part*

“Zənbur” jurnalının nəşri, tədqiqi və dərgidəki ədəbiyyat məsələləri ilə bağlı bir çox tədqiqatçılar araşdırma aparmışlar. Mərhum ədəbiyyatşünas-alim, professor İslam Ağayev “Satirik “Zənbur” jurnalı” mövzusunda filologiya üzrə fəlsəfə doktorluğu dissertasiyası müdafiə etmişdir. Ədəbiyyatşünaslardan professor Nazim Axundov, akademik Kamal Talıbzadə, AMEA-nın müxbir üzvü Əziz Mirəhmədov, akademik İsa Həbibbəyli, professor Alxan Bayramoğlu, professor Asif Rüstəmli, professor Bədirxan Əhmədov, filologiya üzrə fəlsəfə doktoru Turan Həsənzadə, filologiya üzrə fəlsəfə doktoru Gülbəniz Babayeva və başqaları jurnaldakı ictimai-siyasi, ədəbi məsələlər haqqında fikir və mülahizələr bildirmişlər.

Akademik İsa Həbibbəylinin araşdırmalarında vurğulanır ki, “Molla Nəsrəddin” ədəbi məktəbi çox geniş anlayış olub, özündə bir neçə yaradıcılıq istiqamətini, çoxsaylı yaradıcı qüvvələri birləşdirirdi: “Bir çox yaradıcılıq sahələri “Molla Nəsrəddin” ədəbi məktəbi içərisində, onun hüdudları daxilində xüsusilə inkişaf edərək daha qabarıq şəkildə nəzərə çarpıb. Beləliklə, vahid ədəbi məktəb daxilində bir neçə məktəb, necə deyərlər, məktəb içində məktəblər yaranıb. “Molla Nəsrəddin” satirik şeir məktəbi, mollanəsrəddinçi yeni nəsr, satirik publisistika və karikatura məktəbləri “Molla Nəsrəddin” ədəbi məktəbinin üzvi tərkib hissələridir. Doğrudur, bu məktəblərdən hər biri, xüsusən mollanəsrəddinçi satirik şeir məktəbi həm də müstəqil ədəbi məktəb təsiri bağışlayır. Hətta “Molla Nəsrəddin” şeir məktəbinin zəminində formalaşmış xüsusi bir Sabir satira məktəbi də nəzərə çarpmaqdadır. Yaxud “Molla Nəsrəddin” karikatura məktəbi ənənələri əsasında ayrıca Əzim Əzimzadə karikaturaçılıq məktəbinin yaranması da inkarolunmaz faktdır. Bütün bunlar nəinki “Molla Nəsrəddin” ədəbi məktəbinin əhəmiy-

yətini azaltmır, əksinə, bu möhtəşəm məktəbin geniş sənət imkanlarını nümayiş etdirir. Görkəmli Azərbaycan ədəbiyyatşünası Firidun bəy Köçərlinin fikrincə, "nöqsanlara gülmək yolu ilə müsəlman cəmiyyətini islah etmək" mollanəsrəddinçi təlimin baş xəttini müəyyən edir. Cəlil Məmmədquluzadənin məsləkdaşı Ömər Faiq Nemanzadə mollanəsrəddinçiliyi aşağıdakı kimi mənalandırırdı: "Molla Nəsrəddin"in gedəcəyi yol birdir ki, o da hər şeydən artıq öz qüsurlarımıza, öz üstümüzdəki ləkələrə, tərəqqiyə mane olan cahilanə adətlərimizə acı-acı gülüb, millətin səadətinə çalışmaqdır" [3].

İnqilabdan əvvəl "Molla Nəsrəddin" jurnalının təsiri altında bir sıra satirik jurnallar nəşr edilmişdir ki, onlardan biri də "Zənbur" jurnalıdır. Bakı şəhər bələdiyyə rəisinin 19 yanvar 1909-cu ildə "Zənbur" jurnalının buraxılması haqqında verdiyi 249 nömrəli şəhadətnamədə redaktor Ə.Tağızadə, naşir doktor Əbdülxalıq Axundov göstərilir.

"Zənbur" jurnalının ətrafına dövrün müxtəlif əqidəli, müxtəlif dünyagörüşlü ziyalıları toplanmışdı. 70 nömrəsi nəşr edilmiş "Zənbur" jurnalının redaktoru bir neçə dəfə dəyişmişdir. Jurnalın 1909-cu il 1-21-ci nömrələrinin redaktoru R.B.Səlimxanov, 1909-cu il 22-42-ci nömrələrinin redaktoru Ə.Əzimzadə, 1910-cu il 1-27 nömrələrinin redaktoru isə Murtuz bəy Pələvəndov idi. 1910-cu il 25 iyun tarixli 22-ci nömrəsindən etibarən baş mühərriri eyni zamanda Ə.Müznib idi. Ədibin ilk satirik yazısı 1909-cu ildə "Zənbur" jurnalında işıq üzü görür. Maraqlı ədəbi yaradıcılığı ilə diqqətləri özünə cəlb edir və 1910-cu ildə "Zənbur"un baş redaktoru təyin olunur.

Redaktorlardan görkəmli rəssam Ə.Əzimzadəni xüsusilə qeyd etməliyik. Ə.Əzimzadə "Zənbur" jurnalının 1909-cu il 22-ci nömrəsindən həmin ilin son 42-ci nömrəsinə kimi redaktorluq etmiş, həmçinin onun fəal müəlliflərindən biri olmuşdur. Onun "Zənbur" jurnalında "Firon xüdə", "Avara rəssam", "Xoruz", "Məəttəl qalan" və başqa imzalarla çap edilmiş yazılarında kəndli həyatı, Azərbaycan qadınlarının hüquqsuzluğu, din və mövhumata qarşı mübarizə motivləri, habelə beynəlxalq imperializmin ifşası geniş yer tuturdu.

1919-cu ildə "Türk nəşriyyat cəmiyyəti"nin çap etdiyi "Zənbur" jurnalında Ə.Əzimzadə 100-dən çox karikatura dərc etdirib. "Zənbur" jurnalının bir sayının qapağında verilmiş Azərbaycan Cümhuriyyətinin bayrağı olan təsvir də ona aiddir. "Zənbur" jurnalında çəkdiyi karikaturalar həm hökumətin fəaliyyətinə, həm də xarici müdaxiləçilərə həsr edilib. Azərbaycan Cümhuriyyəti dövrü satirik mətbuatını araşdıran həmkarım İlqar Əhməd onun haqqında belə yazıb: "O, öz rəsmlərini əksər hallarda gizli imzalar altında çap etdirirdi.

Əzimzadə jurnalın 9 iyul 1919-cu il tarixli 14-cü nömrəsində "Azərbaycan" adlı karikaturasını oxucularına çatdırır. Dərin siyasi məna kəsb edən rəsmdə sağlam bir inək təsvir edilib və üstündə Azərbaycan yazılıb. Bu inəyi sağmaq üçün isə xarici dövlətlər əllərində vedrələr növbəyə düzülüblər, biri isə oturub sağır. Vedrəsi dolmasına baxmayaraq, durmaq bilmir. Növbədə duranlardan biri deyir: "Ağayi ingilis, cəld ol. Növbədə dayanmaqdan ayağımız qırıldı".

Ə.Əzimzadənin çalışdığı "Zənbur" satirik jurnalı siyasi məsələlərə geniş yer verdiyinə görə, burada milli hökumətin başçısı Nəsib bəy Yusifbəylidən Cənubi Qafqaz ölkələrini ələ keçirməyə çalışan Leninə qədər təsvirlərə yer verilib. Bu karikaturalarda Ə.Əzimzadənin mövcud siyasi prosesləri çox aydın dərk etdiyini görürük. Məsələn, İlqar Əhməd Leninlə bağlı karikatura haqqında yazır: "Jurnalın 23 iyul tarixli 16-cı nömrəsində də maraqlı bir karikatura təqdim olunub. Karikaturada Lenin ayaq üstə təsvir edilib. Aşağıda isə Zaqafqaziya millətlərinin nümayəndələri oturub və əllərində respublikaların açarları göstərilir. Lenin mülayim bir görkəmdə: "Qoçaqlarım, veriniz, dayı saxlasın!" deyə açarları onların əlindən alır" [15].

"Zənbur"un ilk nömrəsindəki "Aydınlıq" adlı baş məqalədə onun proqramı açıq ifadə olunmuşdur. Məqalədə deyilir: "Hər tövr olmuş olsa gərək bir az ehtiyatlı olmaq. Çünki aparılan təbii xasiyyəti... sancmaqdır və bu xüsusiyyəti ondan almaq müşküldür. Əlalxüsus ki, qabaqda şirin təməllər ola, məsələn müftəxorların yoğun boyunları, xanımların yalın baldırları, millət dərdindən əriyənlərin yekə qarınları və həmçi-

nin bir tərəfdən bu böyüklükdə şəhərə bir arıq arı heç kifayət etməyəcək...! [7]

Bu kinayəli cümlələrdən də görünür ki, jurnal öz məqamına uyğun olaraq qarşısına "müftəxorları" ifşa etmək kimi nəcib bir məqsəd qoymuşdur.

"Zənbur" o zamankı Azərbaycan ictimai fikrinin xarakter cəhətlərini ifadə edən kütləvi orqana çevrilmiş, satirik ədəbiyyatın inkişafına kömək göstərmişdir. "Zənbur" ətrafında xeyli yazıçı, mühərrir qüvvəsi toplaya bilmişdir. Onlardan bir çoxu sonrakı illərdə satirik mətbuat sahəsində həvəslə çalışırdı" [2, s.133].

"Molla Nəsrəddin" kimi cəhaləti, mövhumatı, savadsızlığı, avamlığı tənqid edən "Zənbur"u Mirzə Ələkbər Sabir belə "qınayırdı":

*Get-gedə, "Zənbur" ağa, sən də çaşırsan deyəsən?*
*Gah da bir məzhəbə, dinə sataşırsan deyəsən?*
*Sən düz adəmsən əgər səndə bu tədbir nədir?*
*Jurnala çəkdiyin ol çalmalı təsvir nədir?*
*Qollarından sarılan kimdir, o zəncir nədir?*
*Dinmədikcə sənə, sərhəddən aşırsan deyəsən?*
*Gah da bir məzhəbə, dinə sataşırsan deyəsən?*
[7]

"Zənbur" jurnalı bir sıra xüsusiyyətləri ilə "Molla Nəsrəddin"ə – öz müəlliminə bənzəyirdi. Bu oxşarlıq özünü "Zənbur"un zahiri görkəmi və daxili mündəricəsində daha açıq şəkildə göstərirdi. Hər iki jurnal 8 səhifədə çıxır. 1, 4, 5 və 8-ci səhifələrdə iri boyalı rəsmlər verilirdi. Senzuranın mətbuat üzərindəki təzyiqini ifşa etmək üçün "Molla Nəsrəddin" kimi "Zənbur" jurnalının da rəsmlərinin yeri bəzən boş buraxılır, üstündə "bizdən asılı olmayan səbəblərə görə çap edilmədi" sözləri yazılırdı. "Zənbur"un şöbələri "Molla Nəsrəddin" jurnalının şöbələrinə yaxın idi. Onun səhifələrində də "Molla Nəsrəddin"də olduğu kimi felyetonlar, şeirlər, teleqraf xəbərləri, poçt qutusu və digər başlıqlar altında materiallar çap olunurdu.

"Zənbur" "Molla Nəsrəddin"dən sonra M.Ə.Sabirin ən fəal çap olunduğu bir jurnaldır. Burada Sabirin "Qoca bəy" və "Çingiz bəy" imzaları ilə 8 satirası, "Patıltı" imzası ilə 4 taziyanəsi dərc edilmişdir. Sabir ədəbi irsinin ən gözəl nümunələrini təşkil edən "Qocalar marşı" (1910, 1) "Ürəfa marşı" (1910, 3), "Pula təvəccöh" (1910, 4), "Millət şərqisi" (1910, 5), "Dilənçi" (1910, 8) və müxtəlif məsələlərlə əlaqədar qələmə alınmış taziyanələri "Zənbur" jurnalının ictimai-siyasi cəbhəsinin qüvvətlənməsində görkəmli rol oynamışdır.

M.Ə.Sabirin "Zənbur"da çıxmış yüksək məzmunlu, orijinal formalı poetik əsərlərinin hər biri jurnalın ədəbi həyatında mühüm əlamətdar hadisə idi. Şairin ictimai satiranın ən yaxşı nümunələrindən olan bu şeirlərində bütün varlığını pula qurban verən, günlərini keyf-işrətdə keçirən, dilənçi halında yaşayanlara gözünün ucu ilə də baxmaq istəməyən burjua-mülkədar ağalar qamçılanırdı. Bu şeirlərdə, eyni zamanda Azərbaycan xalqının dilinə, adətinə, milli xüsusiyyətlərinə xor baxan burjua ziyalıları da ifşa edilirdi.

M.Ə.Sabirin "Zənbur"dakı rolu bununla bitmirdi. "Çingiz bəy" və "Qoçu bəy" imzaları ilə nəşr etdirdiyi şeirləri ilə Sabir "Zənbur"un ədəbi cəbhəsinə istiqamət verirdi.

Görkəmli ədəbiyyatşünas Əziz Mirəhmədov yazır: "Sabirin bir sıra satiralarında bu və ya başqa şəxsiyyət dövrdən narazılığını bildirəndə bu narazılığın nə zamandan başlandığını, daha doğrusu 1905-ci illə əlaqədar olduğunu da qeyd edir. Bunun üçün aşağıdakı parçaları misal gətirmək olar:

*Ey bildir, inişil nola odlara yanaydız,*
*Bizlərdə yox idi belə adət, yenə çıxdı.* [5, s.72]

*Ay kişi bunda əvvəl xalqa hörmət var idi,*
*Binəva mollalara hörmət-izzət var idi...*
[5, s.82]

Beləliklə, Sabir 1905-ci ilin ictimai şüurda əmələ gətirdiyi yeniliyi, cəmiyyətdəki inqilabi oyanmanı göstərməklə bərabər, mürtəcelərin bu tarixi inkişafından narazılığını da istehzalı gülüşlə qarşılayırdı" [4, s.124].

Onun bu əsərlərinin təsiri altında bir çox müəlliflər yetişirdi. Sabirin təsiri altında "Zənbur" jurnalında "Şəmşir", "Şəmşirək" (Əli Nəzmi), "Hammal" (Bayraməli Abbaszadə) və başqa müəlliflər çıxış edirdilər.

Bu müəlliflər içərisində Əli Nəzminin şeirləri daha geniş yer tuturdu. Sabir məktəbinin gör-

kəmli nümayəndələrindən biri olan Əli Nəzminin satirik şeirlərinin mövzusu rəngarəng və aktual idi. Əli Nəzminin "Zənbur"da çıxan şeirlərində qadın azadlığından, İran-Türkiyə inqilabı hadisələrindən bəhs olunur və çarizmin müstəmləkəçilik siyasəti ifşa edilirdi. Əli Nəzminin şeirlərində vətənpərvərlik ruhu da qüvvətli idi.

Görkəmli lirik şair Abbas Səhhət də "Zənbur" ilə əlaqə saxlayırdı. Jurnalın 1910-cu il 13 və 18-ci nömrələrində A.Səhhətin "Sarsaq" imzası ilə "Müsəlman ürəfaları" və "Alimnümalar" adlı şeirlərinə rast gəlirik ki, bunlardan biri hələ şairin sağlığında çıxan "Sınıq saz" (1912) kitabında da təkrar dərc edilmişdir [6, s.42].

Satirik şair Bayraməli Abbaszadə "Hammal" imzası ilə özünün bir neçə şeirini ilk dəfə "Zənbur"da dərc etdirmişdir. "Zənbur" jurnalında şair və jurnalist mütərcim Əliabbas Müznibin satirik şeirləri diqqəti daha çox cəlb edir. Burasını da qeyd etmək lazımdır ki, Ə.Müznib "Zənbur" jurnalının nəşrində yaxından iştirak etmiş, bir müddət jurnalın baş mühərriri də olmuşdur.

"Zənbur" jurnalı öz səhifələrində bədii əsərlərə geniş yer verən mətbuat orqanlarından biri idi. Təkcə onu demək kifayətdir ki, jurnalın nəşr olunmuş 70 nömrəsində iki yüzə qədər şeir və felyeton çap olunmuşdur. Bu əsərlər formaca müxtəlif və rəngarəngdir. Dərgidə satirik və yumoristik şeirlərdən başqa, felyetonlara, satirik dialoqlara, bəhri-təvillərə də təsadüf edilir.

"Zənbur" Azərbaycan mədəniyyətinin əsas sahələrindəki yenilikləri sevinclə qarşılayırdı. O, teatr binalarının tikilməsi, kitab nəşrinin artması, maarif ocaqlarının çoxalması kimi xeyirxah tədbir və təşəbbüsləri alqışlayırdı. O zaman Azərbaycan teatrı binasının qəsdən yandırılması kimi pis hadisəyə jurnalda xüsusi bir şəkil həsr edilmişdir. Üstündə "Komu qore, kimu smex" sözləri yazılmış şəkildə göstərilirdi ki, bu xoşagəlməz hadisə mədəniyyət xadimlərini kədərləndirmiş, ruhaniləri, cəhalətpərəstləri hədsiz dərəcədə sevindirmişdir [7].

Jurnal Azərbaycan teatrının inkişafı üçün o zaman çox böyük maneələrin olduğunu dönə-dönə qeyd edirdi. Başqa bir şəkildə teatrda tamaşa zalının adamla dolu olması və tamaşa göstərilməyə hazır olması təsvir olunurdu. Lakin bir nəfər pərdədən bərk-bərk yapışıb onu açılmağa qoymur və deyir ki, "20 manat almayınca pərdəni buraxan namərddir" [14]. Bununla da, "Zənbur", xeyriyyə cəmiyyətlərinin yarıtmaz işini tənqid edirdi.

"Zənbur" jurnalının ortaya atdığı mövzular müxtəlif idi. İctimai-siyasi məzmunlu bir mətbuat orqanı olduğu üçün onun səhifələrində Azərbaycan xalqının həyat və məişətinin bir çox cəhətlərinin təsvirinə rast gəlmək olar. Jurnalda dünya hadisələri, o zaman İran və Türkiyədə genişlənən inqilabi hərəkat çox kəskin və rəngarəng boyalarla verilirdi. Jurnal 1905-ci il inqilabının məğlubiyyətindən sonrakı qatı irtica illərində nəşr edilmiş olsa da, öz səhifələrində çarizmin dövlət quruluşunun puçluğunu, onun müstəmləkəçilik siyasətinin iç üzünü cəsarətlə ifşa edirdi.

"Zənbur" jurnalı 1905-ci il inqilabının məğlubiyyətindən sonra cəmiyyətin müəyyən təbəqələri, o cümlədən ardıcıl olmayan inqilabçılar və burjua ziyalıları arasında yaranmış ruh düşkünlüyünü də görürdü. "Zənbur"un 1909-cu il 23-cü nömrəsində Petrovskidən "Peşiman" imzası ilə yazan bir müəllif "Zənbur"a göndərdiyi məktubda lağ ilə deyirdi: "Ağa Zənbur, səndən çox təvəqqe edirəm, mənim bu məktubumu jurnalınızda dərc edəsiniz. Bir vaxt mən də sizin kimi fikrə düşmüş idim ki, camaatı qəflət yuxusundan ayıldım. Birini bizlədim, birini öyrətdim. Birini sancdım. Axırda gördüm ki, bu işin aqibəti yoxdur, məni təhqir edirlər... indi peşman olmuşam. İstəyirəm yavaş-yavaş camaatı yalandan tərif eləyim, bəlkə əvvəlki kimi yenə bir hörmət qazanam..."

Jurnalın 1910-cu il 16-cı nömrəsində "Gəncədən simsiz teleqraf agentəsindən" sərlövhəli bir məqalə bu cəhətdən daha xarakterikdir. Burada deyilirdi: "Bu günlərdə Gəncədə müsəlmanlar tərəfindən böyük bir mitinq tərtib olunmuş idi. Mitinqdə şəhərin hər sinfindən iştirak edən var idi. Hətta məşhur Şeyx İmşalı kimi məşhur adamlar və sənətkarlar, bekarlar var idilər. Müsəlmanların mübahisə və mitinqləri qayət atəşin idi. Bu mitinqdə az qalmışdı ki, cəmi dərdlərə çarə tapılsın. Çe fayda, məhəlli hadisəyə tökülən hökumət və polis məmurları bunları dağıdıb və bir çoxunu da qazamata aparıb saldılar. Amma Gəncə meydanından bunları keçirib aparan halda gəncəlilər bir şadlıq edirdilər ki,

taxta çalmanın, qışqırıq vermənin və “budur babilərin cəzası” demənin səsindən qulaq tutulurdu. Allah cəmi müsəlmanları bu cür şad eləsin”. Burada “Zənbur”, bir tərəfdən xalq kütlələrini bürümüş mübarizə əhval-ruhiyyəsini alqışlayırdısa da, o biri tərəfdən bu mübarizənin ilk məğlubiyyətindən sonra cəbhəsini dəyişənlərə öz nifrətini bildirirdi.

Jurnalda çarizm, onun ədalətsiz qayda-qanunları təkcə 1905-ci il hadisələri fonunda işıqlandırılmırdı. “Zənbur”da bilavasitə çarizmin ifşasına aid əsərlər də çoxdur. Ə.Nəzmi şeirlərinin birində yazırdı:

*Baxıram hər tərəfə işləri viran görürəm,*
*Gedirəm hər yana əhvali-pərişan görürəm.*
[11]

Ə.Müznib:

*Bir acizəm zəmanədə, cəlladə tabeyəm,*
*Atəş saçan o xəncəri-füladə tabeyəm.* [13]

Bu misralar ilə carizmə işarə edir, onu əlini xəncərli cəllada bənzədirdi.

“Zənbur” jurnalında fəhlə-kəndli həyatından bəhs edən yazılar da az deyildir. Məsələn, jurnalın 1909-cu il 2-ci nömrəsində çap olunmuş “Kantorda” adlı kiçik bir məqalədə fəhlə deyir: “Ağa, arvad ağrı çəkir, gərək akuşerka çağırım. Bir on beş manat mənə ver, yaz hesabıma”. Ağa cavab verir: “Allah öldürsün bu hesab dəftərini düzəldəni. Heyif deyildi keçən günlər, nə dəftər var idi, nə hesab, məvacibdən kəsməkdən savayı, heç olmazsa öləndə də hesab istəyən çıxmırdı” [9]. Göründüyü kimi, müəllif sahibkarın dili ilə “ötən günlərə” həsəd aparmaqla, bir tərəfdən 1905-ci il hadisələrindən sonra fəhlələrin şüurca oyanmasına işarə vurursa, digər tərəfdən də öz xəstə arvadı üçün həkim çağırmağa da pul tapmayan fəhlənin ağır güzəranını göstərirdi.

“Zənbur”, bir tərəfdən xalq kütlələrinin bürümüş mübarizə əhval-ruhiyyəsini alqışlayırdısa da, o biri tərəfdən bu mübarizənin ilk məğlubiyyətindən sonra cəbhəsini dəyişənlərə öz nifrətini bildirirdi. “Zənbur” jurnalı demokratik ədəbiyyatımızın ideyalarından ilham alırdı. Əgər onun nəzm əsərləri M.Ə.Sabir ədəbi məktəbinin nəfəsi ilə isinirdisə, nəsr əsərləri də C.Məmmədquluzadə, Ə.Haqverdiyev, N.Nərimanov nəsrindən qidalanırdı [1, s.206-212].

Jurnaldakı yazıların böyük bir hissəsi qeyd etdiyimiz kimi, ailə-əxlaq, qadın azadlığı, Azərbaycan dilinin saflığı və yeni əlifba məsələlərinə həsr olunmuşdur. Jurnalın 1910-cu il 32-ci nömrəsində “Xanım qızlar” başlıqlı məqalədə Azərbaycan qadınlarının Aprel işğalından əvvəlki acınacaqlı vəziyyəti təsvir edilib göstərilir ki, dünyada iki cür qazamat vardır. Birincisi çadraya bürünmüş qadınlardır ki, bunlar hərəkət edən qazamatdır. İkincisi əsl qazamatdır. Məqalədə göstərilir ki, qara çadra vasitəsilə həyatdan, cəmiyyətdən ayrı salınan və birinci qazamatın qoynunda böyüyən uşaqlar nadan və tərbiyəsiz olurlar. Onlar cəmiyyətdə layiqli bir şəkildə davrana bilmir, cinayət işlədir, axırda əsl qazamata düşürlər. Başqa bir müəllif “Həyalı arvad” adlı məqaləsində abır-həyanın, namusun yalnız çadrada olduğunu zənn edənləri, “Dursunəli” imzalı bir müəllif isə qadınların yalnız ev işləri üçün yaranmış olduğunu düşünənləri tənqid edirdi.

Əli Razi özünün “Bizim kişi evlənir” rədifli şeirində qoca kişilərin azyaşlı qızlarla evlənməsi məsələsini qoyaraq, ümumiyyətlə köhnə dünyanın bu alçaq adətinə istehza edirdi:

*Üz qırışıb, bel bükülübdür tamam,*
*Göz qamaşıb, diş tökülübdür, balam.*
*Ordu batıb, əllər əsir vəssalam,*
*Eşitmişəm bizim kişi evlənir.*
*Qara tük yox başında, həm qaşında,*
*Bir qızı var ərdə, əlli yaşında,*
*Qız istəyir alsın doqquz yaşında,*
*Eşitmişəm bizim kişi evlənir.* [8]

Qadına münasibət məsələsi “Zənbur”da geniş işlənmişdir. Jurnal çadra əleyhinə çıxır, qadınların savadlanması məsələsini qoyurdu. Bu məsələdə “Zənbur” öz müəllimi “Molla Nəsrəddin” ilə daha yaxından birləşirdi. “Axirət xəbərləri” başlıqlı felyetonunda jurnal çadranı dustaqxanaya bənzədirdi. Elm və maarifdən kənar saxlanılan qızların acınacaqlı həyat tərzinə təəssüflənən Ə.Nəzmi böyük bir ürək yanğısı ilə yazırdı:

*Ey elmsiz aləmdə yanan narə, a qızlar,*
*Talelələri munis, günü qarə, a qızlar.* [10]

Jurnal özünün bir çox bədii əsərlərində ictimai bərabərsizlik dünyasında hər cür haqsızlığa məruz qalan hüquqsuz Azərbaycan qadınlarının acınacaqlı vəziyyətini kəskin tərzdə təsvir edirdi.

"Zənbur"un dini mövhumatla mübarizəsində Əli Nəzminin satiraları əsas rol oynayırdı. Şair din və cəhalətdən istifadə edərək xalqı soyan, onun müqəddəratı ilə oynayanlara alovlu kin bəsləyirdi. "Mənəm" adlı şeirində Əli Nəzmi din xadimlərinin dilindən belə yazırdı:

*Mənəm birmömini-dindar, aqil, əhli-imanəm,*
*Müqəllid kəndimə həm aliməm, həm də Müsəlmanəm.*
*Axundam, vaizəm, şeyxəm, rəisəm əhli-islamə,*
*Çobanam, nazirəm bu küsfəndanə nagahbanəm.*
*Əlimdə ixtiyarım var, dolandırram biyabanı,*
*Otarram, damlaram, həm sahibəm, mən, həm də dərbanəm.* [10]

Jurnalda ictimai-siyasi cəhətdən ziddiyyətli yazılara da rast gəlmək olar. Onun səhifələrində kəskin məzmunlu, ideya cəhətdən qüvvətli yazılar və karikaturalarla birlikdə bir-birinin təkrarı olan xırda, əhəmiyyətsiz ailə-məişət mövzuları da yer tutmaqdadır. Ancaq "Zənbur" jurnalı buraxdığı ən yaxşı rəsmlər və bədii əsərlərlə mütərəqqi ideyaların intişarında, o cümlədən ədəbiyyatımızda satiranın qüvvətlənməsində müəyyən əhəmiyyətli rol oynamışdır.

"Zənbur" jurnalında mülkədar-kəndli münasibətlərinə aid əsərlərə daha geniş yer verilmişdir. Lakin jurnalın bu mövzudakı əsərləri ictimai xarakter daşımırdı. Bu mövzuya həsr olunmuş əsərlərdə bir liberalizm əhval-ruhiyyəsi nəzərə çarpır. Əzilənin yalvarış sədaları daha çox eşidilir. Mülkədar-kəndli münasibətlərinə aid şeirlərin birində kəndli mülkədara deyirdi:

*Bir ac fəqirəm, tutub əflaki fəğanım,*
*Artıq söz heç qalmamış, ey vahi təvanım,*
*Vallahi acam, dönməyir ağzımda zəbanım,*
*Lütf eylə, mən acizə imdad elə, ərbab!*
*Viranə olan könlümü abad elə, ərbab!*

"Zənbur" jurnalındakı bədii əsərlərin böyük bir qismi vətən və xalq mövzusuna həsr edilmişdir. Məlumdur ki, bu mövzu hələ XIX əsrin ikinci yarısında M.F.Axundzadə, H.Zərdabi, S.Ə.Şirvani və başqalarının yaradıcılığında özünün parlaq əksini tapmışdır.

XX yüzilliyin əvvəllərində bu mövzu Azərbaycan ədəbiyyatında daha mühüm yer tutur. Bu, hər şeydən əvvəl, 1905-ci il inqilabi hadisələrindən sonra geniş xalq kütlələrinin ictimai-siyasi şüurunun oyanması ilə əlaqədar idi. Vətən və xalqın müqəddəratı, gələcək taleyi haqqında "Zənbur" jurnalında dərc edilmiş bədii əsərlər içərisində Sabirin şeirləri diqqəti xüsusilə cəlb edir.

"Zənbur" jurnalında dərc olunan bədii əsərlərdəki mütərəqqi istiqamət onun 1905-ci il birinci rus inqilabının təsiri ilə İran və Türkiyədə baş verən hadisələrə münasibətdə də özünü göstərir. 1906-1911-ci illərdə cərəyan edən bu hadisələr həm Cənubi, həm də Şimali Azərbaycanın realist-demokratik ədəbiyyatında geniş yer tutan mövzuya çevrildi. "Molla Nəsrəddin" jurnalı və onun M.Ə.Sabir, C.Məmmədquluzadə, Əliqulu Qəmküsar, Ə.Nəzmi və M.S.Ordubadi kimi müəllifləri öz yaradıcılıqlarında İran milli-azadlıq hərəkatının böyük təbliğatçılarından oldular.

*Əhli İranda, nə oğlan, yenə hümmət görünür,*
*Yenə hər guşədə tazə camaət görünür –*

beyti ilə başlanan satirasında Sabir İran milli azadlıq hərəkatının içərisinə soxulub inqilabdan öz məqsədləri üçün istifadə edən mürtəce ünsürlərin qara niyyətlərini ifşa edərək deyirdi:

*Neçə ac bəy, neçə tox molla, neçə kök qazi,*
*Üzv olub məclisə həll etdilər istiqrazi,*
*Olsun Allah belə kamil kişilərdən razi,*
*Unuduldu dəxi İranda şüuni-mazi.*
*İndi İran demə, bir guşeyi-cənnət görünür,*
*Əhsənüllah ki, dəxi bizdə səadət görünür.* [10]

Bəzi burjua nümayəndələrinin əxlaqının ifşasına dair jurnalda verilmiş əsərlər içərisində M.Ə.Sabirin "Pula təvəccöh" adlı satirası daha səciyyəvidir. Şeirdə cəmiyyətdəki pul hökmranlığı, kapital yığımı məsələsi əks olunmuşdur.

Göstərilən tip üçün pul hər şeydir. O, bunu açıq-aydın etiraf edir:

*Nuri çeşmanımmısan, ey pul, ya canımmısan?*
*İstəməm, namusum, irzim, qeyrətim, qanımmısan?*
*Hörmətim, fəxrim, cəlalım, şövkətim, şanımmısan?*
*Müshəfim, Məkkəm, qibləm, ərkanımmısan?*
*Məzhəbim, dinimmi, ayinimmi, imanımmısan?* [9]

İrandakı inqilabi-siyasi hadisələr Ə.Nəzminin, B.Abbaszadə Hammalın, Əliabbas Müznibin əsərlərində də geniş yer tuturdu. Onlar öz şeirlərində İran inqilabını azadlıq hərəkatı kimi alqışlayır, inqilabın düşmənlərini lənətləyirdilər.

Bu cəhətdən B.Abbaszadə Hammalın şeirləri diqqəti daha çox cəlb edir. Taleyi İran azadlıq hərəkatının taleyi ilə möhkəm bağlı olan Hammalı narahat edən məsələlərdən biri təxminən Sabirin yuxarıda haqqında bəhs etdiyimiz şeirindəki məsələ idi; məşrutəçilər içinə soxulub özünü fədayi adlandıran, əslində isə inqilabdan öz mənafeyi üçün istifadə edənlərə, Sabirdə olduğu kimi, Hammalın şeirlərində də kəskin nifrət vardır. Şeirlərinin birində o, İran xalqına müraciət edərək yazırdı:

*Mən ruzi-əzəldən demişəm, əncümənəm mən,*
*Gər döysələr, öldürsələr də inciməynəm mən.*
*Söz verməyrəm əğyarə, məgər möhtəmənəm mən?!*
*Millət yoluna ölməyə hazır kəfənəm mən.* [12]

## Nəticə / *Conclusion*

"Zənbur"da 1908-ci ildən sonra Türkiyədə baş verən inqilabi hadisələrə də müəyyən dərəcədə toxunulmuşdur. "Molla Nəsrəddin" məktəbi ənənələrinə sadiq qalan jurnal həmin ölkələrdəki inqilabi hərəkatı birinci dərəcəli vacib siyasi məsələ kimi işıqlandırırdı. Jurnalda verilən rəsmlərdən birində Yaxın Şərqdə baş verən hadisələr iki vəziyyətdə təsvir edilir: "1905-ci ilə qədər" adlanan birinci vəziyyətdə, Şərqin yüz milyonlarla əhalisi beşikdəki köməksiz uşağa bənzədilir, "1905-ci ildən sonra" adlanan ikinci vəziyyətdə isə müstəmləkə xalqların birbirinin ardınca ayağa qalxaraq, beşikdən çıxıb qaçdığı təsvir olunur" [7].

"Zənbur" jurnalı öz səhifələrində nəşr etdirdiyi ən yaxşı bədii əsərlərlə, mütərəqqi ideyalarla ədəbiyyatımızda ictimai satiranın inkişafında əhəmiyyətli rol oynamışdır.

## Ədəbiyyat / *References*


1. Ağayev, İ. Satirik "Zənbur" jurnalı. – "Azərbaycan" jurnalı, 1962, №6.
2. Axundov, N. Azərbaycanın satirik jurnalları (1906-1920-ci illər). – Bakı, 1968.
3. "Xalq cəbhəsi", 2014, 23 sentyabr.
4. Mirəhmədov, Ə. Sabir. – Bakı, 1958.
5. "Molla Nəsrəddin" jurnalı, №8.
6. Talıbzadə, K. Abbas Səhhət. – Bakı, 1955.
7. "Zənbur" jurnalı, 13 mart 1909, №1.
8. "Zənbur" jurnalı, 1909, №3.
9. "Zənbur" jurnalı, 1909, №2.
10. "Zənbur" jurnalı, 1909, №24.
11. "Zənbur" jurnalı, 1909, №37.
12. "Zənbur" jurnalı, 1909, №39.
13. "Zənbur" jurnalı, 1910, №20.
14. "Zənbur" jurnalı, 18 sentyabr 1909, №26.
15. https://teleqraf.com/news/toplum/246873.html.

## Вопросы литературы в сатирическом журнале «Занбур»

**Вугар Ахмед**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: vuqar.ehmed.63@mail.ru

**Резюме.** Начало издания в Баку 13 марта 1909 года первого номера «Занбура» тесно связано с «Молла Насреддином». Многие публицисты того времени стремились создавать подобные органы печати, следовать пути прославившегося среди широких народных масс журнала «Молла Насреддин», издаваемого великим писателем-демократом Джалилом Мамедгулузаде. Круг журнала «Занбур» составляли интеллигенты той эпохи с различными взглядами, различными мировоззрениями. К времени издания 70-го номера журнала «Занбур» в нём несколько раз менялись редакторы. В 1901 году редактором с 1-21 номеров журнала был Р.Б.Селимханов, редактором 22-42 номеров того же года был А.Азимзаде, 1-27 номеров 1910 года был Муртуз бек Пелевандов. Среди редакторов особо следует отметить художника А.Азимзаде, который был редактором журнала «Занбур» с 22 по 42 номеров до конца 1909 года и являлся также одним из его деятельных авторов. Широкое место в журнале «Занбур» занимали его статьи под псевдонимами «Мошенник-самодур», «Художник-бродяга», «Петух», «Озадаченный» и др., содержащие мотивы о сельской жизни, бесправии азербайджанской женщины, борьбы с религиозным фанатизмом, а также разоблачающие международный империализм.
Журнал «Занбур» сыграл значительную роль в публикации на своих страницах лучших художественных произведений, развитии в нашей литературе прогрессивных идей общественной сатиры.
**Ключевые слова:** «Занбур», литература, журнал, поэт, эпоха